# “Əgər biz güclü müstəqil dövlət qurmasaydıq, tarixi torpaqlarımızı işğaldan azad edə bilməzdik”

**Prezident İlham Əliyev mayın 28-də Ağdam şəhərinin bərpasının təməl daşının qoyulması mərasimindəki çıxışında müstəqilliyimizin ötən illər ərzində getdikcə gücləndiyini vurğulayaraq, bildirib ki, əgər biz güclü müstəqil dövlət qurmasaydıq, öz tarixi torpaqlarımızı işğalçılardan azad edə bilməzdik. “Ancaq güclü Azərbaycan, müstəqil Azərbaycan, sözün əsl mənasında, müstəqil siyasət aparan Azərbaycan bu tarixi missiyanı şərəflə yerinə yetirdi”,–deyə dövlətimizin başçısı vurğulayıb.**



Ölkə rəhbəri işğal dövründə təmas xəttində olarkən Ağdam şəhərinin dağıntılarının bir hissəsini binokl ilə uzaqdan izləyərək nəyin bahasına olursa-olsun, mütləq tarixi ərazilərimizə qayıdacağımızı, tarixi ədaləti bərpa edəcəyimizi, düşməni torpağımızdan qovacağımizi əminliklə bəyan etmişdi.

Dövlətimizin başçısı ötən illər ərzində bu missiyanın sülh yolu ilə həll edilməsinin tərəfdarı olduğunu xatırladaraq, deyib: “Ancaq Azərbaycan vətəndaşları yaxşı bilirlər ki, sülh danışıqları, sadəcə olaraq, status-kvonun əbədi olmasına istiqamətləndirilmişdi. Əfsuslar olsun ki, bu məsələ ilə məşğul olan vasitəçilər 30 ilə yaxın davam edən danışıqlar müddətində aqressora – işğalçıya təzyiq göstərmədilər, onları məcbur etmədilər, onlara sanksiyalar tətbiq etmədilər. Açıq-aydın demədilər ki, işğalçı qüvvələr Azərbaycan torpağından çıxmalıdır. Aqressor təbii olaraq, daha da azğınlaşırdı, daha da qudururdu və bu torpaqları əbədi işğal altında saxlamaq istəyirdi və bu, sirr deyil”.

Bu məqamda qeyd edək ki, Azərbaycan işğal dövründə sülh danışıqlarını aparmaqla yanaşı, iqtisadi cəhətdən güclənməyə də xüsusi önəm verirdi. Təkcə Vətən müharibəsi ilinin və indiki vaxtın bəzi makroiqtisadi göstəricilərinə diqqət yetirsək, bunu aydın görə bilərik. Belə ki, hazırda Azərbaycanda Cənubi Qafqaz iqtisadiyyatında 60 faiz paya malik güclü iqtisadiyyat formalaşdırılıb. Milli iqtisadiyyatın davamlı inkişafı üçün ölkə BMT-nin Minilliyin İnkişaf Məqsədlərinə qoşulub. Əhalinin hər nəfərinə düşən ümumi daxili məhsul 4 min 753 manatdan 7 min 263 manata çatdırılıb. Qeyri-neft iqtisadiyyatının həcmi real ifadədə 1,6 dəfəyə yaxın artaraq 50,8 milyard manat olub. Qeyri-neft sənayesində məhsul istehsalı 5 milyard manatdan 12 milyard manata çatıb. Kənd təsərrüfatında məhsul istehsalı 3,9 milyard manatdan 8,4 milyard manata yüksəlib.

**(ardı 2-ci səhifədə)**

Xalq qəzeti.- 2021.- 8 iyun.- S.1;2.

# “Əgər biz güclü müstəqil dövlət qurmasaydıq, tarixi torpaqlarımızı işğaldan azad edə bilməzdik”



**(əvvəli 1-ci səhifədə)**

İqtisadiyyatın digər sahələrində də yüksək göstəricilər qeydə alınıb. Məsələn, ixracda qeyri-neft sektorunun payı 7,4 faizdən 13,7 faizə çatıb. İdxalın həcmi 1,7 dəfə artaraq 6,6 milyard dollardan 10,7 milyard dollara yüksəlib. Dövlət büdcəsinin gəlirləri 2,1 dəfə artaraq 24,7 milyard manat təşkil edib.

Ölkədə investisiya mühitinin yaxşılaşması nəticəsində 2010-2020-ci illərdə iqtisadiyyata 211,2 milyard ABŞ dolları həcmində investisiya qoyulub. O cümlədən, daxili investisiya 110,3 milyard ABŞ dolları, xarici investisiya isə 101 milyard ABŞ dolları təşkil edib. Qoyulan investisiyaların 130 milyard ABŞ dollarından çoxu qeyri-neft sektorunun inkişafına yönəldilib.

Azərbaycanın sosial - iqtisadi sahələrdə əldə etdiyi uğurlar, eləcə də ölkədə həyata keçirilən iqtisadi islahatlar, rəqabətədavamlı, innovativ iqtisadi sistemin formalaşdırılması istiqamətində atılan ardıcıl addımlar dünyanın aparıcı iqtisadi-maliyyə institutlarının, iqtisadi azadlıq səviyyəsini tədqiq edən mərkəzlərin diqqətindən bu gün də kənarda qalmır və yüksək qiymətləndirilir.

Beynəlxalq reytinq agentliklərinin proqnozları da bir daha təsdiqləyir ki, Azərbaycan artıq iqtisadi cəhətdən azad ölkədir. Respublikada əlverişli biznes, investisiya mühiti mövcuddur. Eyni zamanda, hökumət vergi gəlirlərində və kapital xərclərində, habelə milli valyutanın məzənnəsi ilə bağlı təsirli nizamlayıcı addımlar atmaqla mövcud valyuta ehtiyatlarının azalmasının qarşısını alır. Bu isə liberal iqtisadi islahatların, düşünülən, elmi əsaslara malik inkişaf konsepsiyasının həyata keçirilməsi, siyasi iradə nəticəsində mümkün olub və bütün bunlar dövlətimizin dünyanın inkişaf etmiş ölkələri səviyyəsinə çatmaq əzmindən, Azərbaycanın uğurlu gələcəyindən xəbər verir.

Xatırladım ki, təkcə bu ilin ötən aylarında dünyanın aparıcı iqtisadi-maliyyə institutlarının, beynəlxalq reytinq agentliklərinin hesabatlarında ölkəmizin sosial-iqtisadi həyatı ilə bağlı ayrı-ayrı sahələrdə əldə edilən uğurlar yüksək dəyərləndirilib, gələcək inkişafla bağlı müsbət proqnozlar verilib. Məsələn, Azərbaycanda aparılan iqtisadi islahatlar Dünya Bankı tərəfindən dəstəklənib, ölkə rəhbərliyinin uğurlu sosial-iqtisadi siyasəti nəticəsində əldə olunan nailiyyətlər yüksək qiymətləndirilib.

Beləliklə, Prezident İlham Əliyev ölkəmizi 18 il ərzində həm iqtisadi, həm də siyasi cəhətdən gücləndirdi, regionun lider dövlətinə çevirdi, nəhəng nəqliyyat-kommunikasiya, neft, qaz, enerji layihələrinin təşəbbüskarı kimi çıxış etdi. Bununla da Azərbaycanın Ermənistana və bütün dünyaya Cənubi Qafqazda ən güclü dövlət olduğunu göstərdi.

Ümumiyyətlə, dövlətimizin başçısı 2003-cü ildə qarşıya qoyduğu və bəyan etdiyi strateji hədəfləri gerçəkləşdirmək üçün ötən müddətdə istər beynəlxalq miqyasda, istərsə də ölkə daxilində məqsədyönlü, ardıcıl, düşünülmüş siyasət həyata keçirdi və “güclü dövlət” konsepsiyasını reallaşdırmağa nail oldu. Bununla da dövlətimizin başçısı qurucu, birləşdirici, Azərbaycan xalqının bütün istək və arzularını reallaşdıran, öz fəaliyyətində Azərbaycan dövlətinin maraqlarını ən ali məqsəd kimi görən və bütün qüvvəsini bu istiqamətə yönəldən, xalqın birmənalı şəkildə dəstəklədiyi, etimad göstərdiyi liderə çevrildi.

Onu da qeyd etmək yerinə düşər ki, dövlətimizin başçısı fəaliyyəti dövründə Silahlı Qüvvələrimizin modernləşməsini də diqqət mərkəzində saxlayırdı. Yeri gəlmişkən, ulu öndər Heydər Əliyev yenidən ölkəyə rəhbərliyə başlayandan sonra sosial-iqtisadi, demokratik islahatlarla bərabər, mükəmməl nizami ordunun da əsası qoyuldu. Prezident İlham Əliyev isə son 18 ildə Silahlı Qüvvələrin fəaliyyətinin gücləndirilməsinə mühüm önəm verdi. Bunun üçün, ilk növbədə, ölkəmizdə milli həmrəylik, xalq-iqtidar birliyi yaradıldı, ciddi kadr islahatı aparıldı, cəmiyyətdə sosial ədalətin yaradılması üçün bir sıra layihələr gerçəkləşdirildi. Eyni zamanda, güclü iqtisadiyyat quruldu, karbohidrogen ehtiyatlarının hasilatı və ixracı istiqamətində xüsusi addımlar atıldı. Dövlətimizin başçısı ordu quruculuğunu bütün yuxarıda sadalananlarla paralel apardı.

Ölkə rəhbəri çıxışlarının birində bu məqama toxunaraq, Ermənistana sarsıdıcı hərbi zərbənin vurulmasında xalq-iqtidar-ordu amilinin əhəmiyyətini yüksək dəyərləndirib: “Biz bu torpaqlara Azərbaycan xalqının, şəhidlərimizin canı, qanı bahasına, qəhrəmanlarımızın şücaəti hesabına qayıtmışıq. Biz güc toplamalı idik və toplayırdıq. Mən son 17 il ərzində xalqa müraciət edərkən dəfələrlə deyirdim ki, biz daha güclü olmalıyıq, daha qüdrətli ordu qurmalıyıq. Bu gün dünyada güc amili həlledici rol oynayır. Haqq-ədalət bizim tərəfimizdədir, beynəlxalq hüquq bizim tərəfimizdədir, güc də bizim tərəfimizdə olmalıdır. Məhz gücümüzün yetərli dərəcədə olmaması nəticəsində Azərbaycan 1990-cı illərin əvvəllərində işğala məruz qalmışdır...”

Bəli, 18 il ərzində Azərbaycan iqtisadiyyatının güclənməsinin, bunun sayəsində isə Silahlı Qüvvələrimizin dünyanın ən güclü orduları sırasında yer almasının məntiqi nəticəsi idi ki, ötən il sentyabrın 27-də ölkəmizin işğalçıya qarşı başladığı əks-hücum əməliyyatı tam qələbə və düşmənin kapitulyasiyası ilə yekunlaşdı. Bununla da Vətən müharibəsi başa çatdı. Azərbaycan bu savaşda parlaq qələbə qazandı, işğal aldındakı torpaqlarımızı yağılardan təmizlədi. Müzəffər ordumuz düşmənin torpaqlarımızdan qovulmasında müstəsna xidmətlər göstərdi, zəfər uğrunda inadından dönmədi, əzmlə, cəsarətlə son nəticəyə qədər döyüşdü.

Azərbaycan Prezidenti çıxışlarının birində bir çox ekspertlərin fikirlərinə əsaslanaraq, bildirib ki, Azərbaycan torpaqlarımızın azad edilməsində XXI əsrin müharibəsini aparıb. XXI əsrdə ilk dəfə olaraq, bu miqyasda və bu səmərə ilə qısa müddət ərzində tarixi nailiyyətlər əldə edilib, ordumuz ən ağır əməliyyatları uğurla başa çatdırıb, ən çətin, mürəkkəb sədləri asanlıqla dəf edib. Buna görə də dünyanın bir sıra inkişaf etmiş ölkələrində Azərbaycanın hərbi təcrübəsinin öyrənilməsi qərara alınıb.

Silahlı Qüvvələrimizdən söz düşmüşkən, bir məsələni də xüsusi vurğulamaq istərdik. Belə ki, Azərbaycan döyüşlərdə hərb tarixinə yenilik kimi düşən strategiyanın tətbiqi ilə ən müasir silahlardan istifadəyə xüsusi önəm verdi. Nəticədə həm sürətlə irəlilədi, işğal altındakı ərazilərimizi yağılardan təmizlədi, həm də düşmənin bütün hərbi texnikasını darmadağın etdi, canlı qüvvəsinə ciddi zərbə vurdu. Bununla da beynəlxalq təşkilatların 30 il ərzində edə bilmədiklərini Azərbaycan Ordusu Ali Baş Komandanın rəhbərliyi ilə qısa müddətdə gerçəkləşdirdi.

Ordumuz əks-həmlə əməliyyatları zamanı müasir texnoloji silahlarla düşmənin komanda-idarəetmə məntəqələrini, raket və artilleriya vasitələrini, döyüş texnikasını və təminatını sıradan çıxaraq onu faktiki olaraq iflic vəziyyətinə gətirdi. Müasir texnoloji silahlar Silahlı Qüvvələrimizin güc alətlərindən yalnız biri idi. Müharibənin taleyini müəyyənləşdirən başda Ali Baş Komandanımız olmaqla, döyüş meydanında əsl qəhrəmanlıq göstərən Azərbaycan əsgəri və onun cəsur komandirləri idi. Məhz onların səyi nəticəsində iflic vəziyyətə düşən Ermənistan ordusu arsenalında olan köhnə və istismar müddəti bitmiş silah sistemlərini də döyüşə cəlb etdi və nəticəsi rüsvayçı şəkildə uduzmaq oldu. Bununla da Silahlı Qüvvələrimiz “Ermənistan ordusunun nəğlubedilməzliyi” mifini darmadağın etdi.

Vətən müharibəsində ordumuzda şəxsi heyətin ruh yüksəkliyini xüsusi qeyd etməliyik. Bu baxımdan Azərbaycan Silahlı Qüvvələri təkcə silah və müasir texnika gücünə yox, həm də yüksək döyüş ruhu, vətənpərvərlik nümunəsi ilə möhtəşəm qələbəni reallaşdırdı. Əsgər və zabitlərimizin fiziki və qəhrəmanlıq gücü hesabına Şuşanın işğaldan azad edilməsi bunun bariz ifadəsidir. Çünki Şuşa elə bir yerdir ki, oranı 5-10 günlük hazırlıqla azad etmək mümkün deyildi. Bunun üçün illərlə hazırlıq keçilməsi lazım idi. Ali Baş Komandanın nəzarəti altında Azərbaycan Ordusu bu hazırlığı keçmişdi, hər cür mürəkkəb relyefdə, hava şəraitində döyüşmək bacarıqlarına yiyələnmişdi. Şuşa əməliyyatının xarakteri elə idi ki, orada heç bir səhvə yol vermək olmazdı. Əməliyyat ən kiçik detallarına qədər, ən yüksək dəqiqliklə, dəqiq kəşfiyyat məlumatları əsasında və yüksək peşəkarlıqla hazırlanmalıydı, hazırlandı da. Əməliyyata elə heyət cəlb olundu ki, onun icrasında kiçik də olsa səhvə yol verilmədi.

Şuşa əməliyyatında bir məqsəd də şəhərin dağıntılara məruz qalmasına yol verməmək idi. Bu məqsədə də nail olundu, şəhər demək olar ki, dağıntısız azad edildi. Hərbçilərimiz sıldırım qayalarla yuxarı qalxaraq, düşməni heç gözləmədiyi yerdə yaxaladılar, yaxın məsafəli, əlbəyaxa döyüşdə onu məğlub edib, içərilərə doğru irəlilədilər. Bu isə düşməni panikaya düşməsinə, idarəçiliyi itirməsinə gətirib çıxardı. Beləliklə, işğalçı bütünlüklə Şuşadan qovuldu.

Yeri gəlmişkən, son bir neçə ilin statistikasına əsasən, ölkəmiz müasir silahlanmaya görə, Avropada 2-ci, dünyada 3-cü yerdə qərar tutub. Şübhəsiz ki, bütün bu uğurlar dövlətimizin başçısının həyata keçirdiyi məqsədyönlü ordu quruculuğu siyasəti sayəsində mümkün olub.

Əgər belə olmasaydı, hazırda Azərbaycan Ordusu torpaqlarımızı işğaldan azad etmək üçün BMT Təhlükəsizlik Şurasının kağız üzərində qalan 4 qətnaməsini təkbaşına reallaşdıra, hərb meydanında düşmənə qalib gələ, cəbhə xəttinin bütün istiqamətlərində əməliyyat şəraitinə tam nəzarət edə bilməzdi.

***Vaqif BAYRAMOV, “Xalq qəzeti”***